

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 194 (23.356)

*16 oktyabr 2019-cu il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Oktyabrın 15-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü keçirilib.

Əvvəlcə dövlət və hökumət başçıları birgə foto çəkdiriblər.

Azərbaycan Prezidenti İlham Əliyev Zirvə Görüşündə çıxış edib.

* * *

Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında iqtisadi müşavirə keçirilib.

Müşavirədə 2019-cu ilin 9 ayının sosial-iqtisadi yekunları və 2020-ci ilin dövlət və icmal büdcəsi layihələri müzakirə edilib.

Prezident İlham Əliyev müşavirədə çıxış edib.




## İ.Ə.Həbibbəylinin 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına və elmin inkişafında xidmətlərinə görə İsa Əkbər oğlu Həbibbəyli 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 15 oktyabr 2019-cu il*

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində bir sıra qərarlar qəbul edilmişdir

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində oktyabr ayının ilk 15 günü ərzində müəyyən qərarlar qəbul edilmişdir. Belə ki, 2019-cu il 3 oktyabr tarixli qərarları ilə “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti tərəfindən yeni alınan, lizinqə verilən və lizinq yolu ilə satılan texnikaya güzəştlərin tətbiq edilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2014-cü il 2 sentyabr tarixli 77 nömrəli Qərarında və “Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət musiqi təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 8 may tarixli 60 nömrəli Qərarında bir sıra dəyişikliklər edilmişdir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar. nakhchivan.az)* tanış olmaq mümkündür.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı***

## Dövlət qulluğu sahəsində qanunvericiliyin tətbiqi diqqətdə saxlanılır

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya öz işini qanunvericiliyin tələblərinə uyğun olaraq yerinə yetirmiş, şəffaflıq və obyektivliyin təmin edilməsi, dövlət qulluğuna dair qanunvericiliyin tətbiqinə nəzarətin gücləndirilməsi istiqamətində tədbirləri sentyabr ayında davam etdirmişdir.

Naxçıvan Muxtar Respublikasının dövlət ümumtəhsil müəssisələrinə işə qəbul üçün elan edilmiş müsabiqənin test imtahanları keçirilmiş, müsabiqəyə 302 vakant vəzifə çıxarılmış, 199 vəzifənin tutulması üçün 613 namizəd müraciət etmişdir. Test imtahanlarında 576 namizəd iştirak etmiş, 235 nəfər keçid balını toplamışdır. Şahmatın tədrisinin keyfiyyətinin yaxşılaşdırılması və müəllimlərin peşəkarlıq səviyyələrinin yoxlanılması məqsədilə şahmat fənnini tədris edən müəllimlərin sertifikasiyası üzrə test imtahanları olmuş, imtahanlarda 93 müəllim iştirak etmiş, onlardan 83-ü müvafiq keçid balını toplamışdır.

Musiqi təhsili müəssisələrinə işə qəbul ilə əlaqədar vakant vəzifələrin tutulması üçün elan olunmuş müsabiqənin test imtahanlarında müsabiqəyə çıxarılmış 285 vakant vəzifənin tutulması üçün keçirilən imtahanlarda 80 namizəd iştirak etmiş, onlardan 20-si keçid balını toplamış, müsahibə mərhələsində isə 18 nəfər iştirak etmiş, onlardan 16-sı müvafiq keçid balını toplamışdır. Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində işə qəbul ilə əlaqədar vakant vəzifələrin tutulması üçün elan olunmuş müsabiqənin test imtahanlarında iştirak edən 78 namizəddən 22-si müvafiq keçid balını toplamışdır.

Komissiya tərəfindən müvafiq dövlət orqanlarının müraciətləri nəzərə alınmaqla vakant sektor müdiri vəzifələrinin tutulması üçün 4 nəfərin iştirakı ilə test imtahanları keçirilmiş, sertifikat əldə etmiş 3 nəfərin müsahibə mərhələsində komissiya nümayəndəsinin iştirakı təmin edilmişdir.

Ötən ay dövlət qulluğuna işə qəbul üzrə təşkil olunmuş hazırlıq kurslarında 32, sınaq imtahanlarında 64 nəfər iştirak etmişdir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Gənclər hərbi xidmətə yola salınır

“Azərbaycan Respublikası vətəndaşlarının 2019-cu il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 28 avqust tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması mərasimi keçirilib.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Mərasimdə Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədr müavini Sultan İsmayılov, Ədliyyə nazirinin müavini, ədliyyə müşaviri Emin Səfərov, Gənclər və İdman nazirinin müavini Mirməcid Seyidov, Təhsil nazirinin müavini Ovni Muradov çıxış edərək bu əlamətdar hadisə münasibətilə çağırışçıları və onların valideynlərini təbrik ediblər.



Valideyn Təvəkkül Cəfərov övladının hərbi xidmətə yola salınmasından böyük qürur hissi keçirdiyini bildirib, çağırışçı gənclərə xoş arzularını dilə gətirib.

Çağırışçılar adından çıxış edən Rauf Abbasov Vətənə şərəflə xidmət edəcəklərinə, komandirlərinin tapşırıqlarını vaxtında və dəqiq yerinə yetirəcəklərinə söz verib.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, polkovnik-leytenant Daşqın Rəhimov bildirib ki, ulu öndərimiz Heydər Əliyev tərəfindən əsası qoyulan ordu quruculuğu prosesi bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda uğurla davam etdirilir. Bütün sahələr üzrə əldə edilən nailiyyətlər ordumuzun da hərtərəfli inkişafına və güclənməsinə səbəb olub. Bu sahədə görülən işlərin nəticəsidir ki, indi ordumuz dünyanın ən müasir silah-sursatları ilə təmin edilib. Buna görə də ordu sıralarına yola salınan gənclərimiz silah və texnikaların sirlərinə dərindən yiyələnməli, Vətən qarşısında xidmətlərini layiqincə yerinə yetirməlidirlər.

Xidmət rəisi hərbi xidmətə yola salınan çağırışçıların valideynlərini və yaxınlarını təbrik edərək əmin olduğunu bildirib ki, övladları ordu sıralarında ləyaqətlə xidmət keçməklə, hərbi texnikanın sirlərinə dərindən yiyələnməklə, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanmaqla onların başını uca edəcəklər.

Mərasim Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başa çatıb.

Qeyd edək ki, həmin gün Şahbuz və Sədərək rayonlarında da gənclərin ordu sıralarına yolasalınma mərasimləri keçirilib.

✍ **Səbuhi HƏSƏNOV**

## İstilik sistemi olmayan müəssisələr mal-materiallarla təmin olunub



İstilik sistemi olmayan müəssisələrin mal-materiallarla təmin olunması ilə bağlı keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Maliyyə nazirinin müavini Həsən İsmayılov çıxış edərək bildirib ki, 2019-cu il sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində muxtar respublikada 2019-2020-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə Maliyyə Nazirliyinin qarşısında da bir sıra vəzifələr qoyulub. Nazirliyə muxtar respublikada istilik sistemi olmayan müəssisələrə payız-qış mövsümündə tələb olunan mal-materialın alınması üçün lazımi maliyyə vəsaitinin ayrılmasını təmin etmək, həmçinin dövlət müəssisələrində enerji daşıyıcılarından istifadə zamanı borc qalığının yaranmamasını nəzarətdə saxlamaq tapşırılıb.

Qeyd olunub ki, verilən tapşırıqların icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 26 sentyabr tarixli Sərəncamına əsasən Təhsil, Səhiyyə və Mədəniyyət nazirliklərinin təklifləri nəzərə alınaraq istilik sistemi olmayan müəssisələrdə 2019-2020-ci illərin payız-qış mövsümü üçün tələb olunan yanacağın, mal-materialların bölgüsü təsdiq edilib. Müşavirədə qarşıya qoyulmuş tapşırıqların icrası ilə əlaqədar müəyyənləşdirilmiş bölgüyə uyğun olaraq Maliyyə Nazirliyi tərəfindən mal-materialların alınması üçün lazımi vəsaitin ayrılması təmin olunub.

Sonra istilik sistemi olmayan müəssisələrə mal-materiallar paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

## Payızlıq taxıl əkini işləri aparılır



Babək rayonu aqrar sahənin dinamik inkişaf etdiyi bölgələrdən biri kimi tanınır. Görülən kompleks tədbirlər nəticəsində gələn ilin bol məhsulunun əsasını qoymaq üçün şum qaldırılması, toxum səpini və əkilmiş sahələrin suvarılması istiqamətində həyata keçirilən işlər davam etdirilir.

Yaradılan şəraitin nəticəsi kimi 2019-cu il üçün Naxçıvan Muxtar Respublikası üzrə ən çox taxıl əkini Babək rayonunda aparılıb.

Ötən dövr ərzində Babək rayonunda taxılçılıq üstün istiqamət kimi saxlanılıb və 2019-cu ilin məhsulu üçün 10 min 610 hektar sahədə taxıl əkilib ki, bunun da 10 min 221 hektarı payızlıq, 389 hektarı isə yazlıq taxıldır. Taxıl zəmilərinin 7884 hektarında buğda, 2726 hektarında isə arpa əkilib. 2018-ci ilə nisbətən taxıl əkini sahəsində 84 hektar artım müşahidə olunub. Əvvəlcədən həyata keçirilən tədbirlər taxıl tədarükünü optimal müddətdə başa çatdırmağa və məhsulu itkisiz toplamağa imkan verib və sahələrdən 33 min 707 ton taxıl yığılıb.

Bundan ruhlanan taxılçılar 2020-ci ilin bol məhsulunun əsasını qoymaq üçün sahələrə çıxıblar. Şum qaldırılmasında iştirak edəcək maşın və mexanizmlərin ahəngdar işləməsini təmin etmək məqsədilə ehtiyat hissələr alınaraq saz vəziyyətə gətirilib.

Babək Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, bu günə qədər rayonda 6417 hektar sahədə şum qaldırılıb. Qeyd edək ki, şum qaldırılması ilə yanaşı, taxıl əkini də sürətlə davam etdirilir. 2154 hektar sahədə əkin aparılıb ki, bunun 1208 hektarını buğda, 946 hektarını arpa təşkil edir. Torpaq mülkiyyətçiləri taxıl sahələrini bir qədər də genişləndirərək əvvəlki ildən artıq əkin sahələri becərmək əzmindədirlər.

✍ **Pərviz HACILI**

> *Yalnız gümrah və qaynar coşqunluqda, doğma ölkəyə hərarətli sevgidə, cəsarət və qətiyyətdə qələbə doğulur. Və təkcə inzivaya çəkilmiş ruh yüksəkliyində deyil, həm də bütün qüvvələrin inadla səfərbərliyə alınması şəraitində, dağları yerindən oynadan, əsrarəngiz dərinlikləri kəşf edən və onları gün işığına çıxaran həmin tədrici və dönməz, daimi yanmada əldə edilə bilər.*
>
> *M.V.Lomonosov*

# Taleyin hökmdarı və ələhəzrət elmin aşiqi

## *İsa Əkbər oğlu Həbibbəylinin yubileyinə*



Onun kimi insanlar haqqında, talelərinin hökmdarı olduqlarını söyləyirlər... O, meqapolislərdən uzaq doğulub ərazisini, mühitini qlobal miqyasda genişləndirməyi bacardı. Kiçik Vətənində – Naxçıvanda, öz həmyerliləri və qohumları arasında özünü heyrətamiz dərəcədə rahat hiss edir. O, bütün Azərbaycanda ictimai xadim, ağsaqqal və müəllim kimi, İsa müəllim kimi, elmin yüksək zirvələrinə çatan, elmi və təşkilatçılıq fəaliyyətindəki uğurlarına görə tanınan və hörmət edilən biridir. Onu izlədikdə eşitmək, anlamaq və lazım olduqda məsləhətləri və ya əməli işi ilə kömək etmək, səmimi sevinmək və həmkarlarının uğurları ilə fəxr etmək, hətta kiçik nailiyyətlər üçün tabeliyində olanlara dəstək və tərif sözləri demək qabiliyyətlərinə çox təəccübləndim. Əsl ideya və fikir yaradıcısı, zəhmətkeş və tədqiqatçıdır!

İsa Əkbər oğlu Azərbaycan xalqının milli dəyərlərinə layiq yaşayır və Vətəninə xidmət edir! Bu səbəbdən də Azərbaycanda onun istedad və əməyi yüksək qiymətləndirilir: əla təşkilatçı İsa Həbibbəyli Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Elm və təhsil komitəsinin sədri, akademik, profilli qurumlar arasında ən nüfuzlularından olan – Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, Əməkdar elm xadimi, Azərbaycan və Türk dünyasının bir sıra yüksək mükafatlarının laureatıdır.

Ölkə xaricində – Türkiyə və İranda, Qazaxıstan və Özbəkistanda, Moskva və Kazanda, İjevskdə və Dubnada... fövqəladə bir insan, etibarlı bir iş ortağı nüfuzuna sahibdir, onu Azərbaycan elminin, ədəbiyyatının, mədəniyyətinin şərəfini yüksəklərə qaldıran görkəmli bir alim kimi tanıyırlar.

Deyirlər ki, yetkinlik yaşına çatana qədər insanı ailə, Vətəni formalaşdırır. İsa müəllim biliyə və ağıla dəyər verən və uşaqların yaxşı təhsil alması üçün əllərindən gələn hər şeyi edən bir ailədə doğulub böyüyüb. O, uşaqlıqdan hörmətli və nəcib bir ailədən olduğunu yaxşı bilirdi. Onun bir alim – nəzəriyyəçi və ədəbiyyatşünas, elm və mədəniyyət tarixçisi, təşkilatçı, siyasətçi və milli xadim kimi formalaşması tələbəlikdən rektora qədər yol keçdiyi Naxçıvan Dövlət Universiteti ilə əlaqədardır. Gözəl müəllimləri, əhatəsində olan insanlar ona, istedadına inandılar və buna görə də hər bir işdə öncüllük qazanmağı, öz xalqının dünya elm platformasında təbliğatçısı olmağı bacaran bu gənc üçün onların əsirgəmədilər.

İsa Əkbər oğlunun seçdiyi elm yalnız daim çalışan, yorulmadan və sədaqətlə ona xidmət edənləri mükafatlandırır. Onun 2000-dən çox elmi əsərin müəllifi olması, bunlardan, təxminən, 40-nın monoqrafiya, dərslik və tədris vəsaiti olması faktı bunun sübutudur. İsa müəllimin ədəbiyyat elminə, Azərbaycan ədəbiyyatşünaslığı metodologiyasının inkişafına, orada təqdim olunan müxtəlif janr və metodlar baxımından milli ədəbiyyat nəzəriyyəsinin xüsusiyyətlərinin dərk edilməsinə, Azərbaycan klassik ədəbiyyatı tarixinin və bütövlükdə, müasir ədəbi prosesin, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin fərdi üslub və poetikasının, ayrı-ayrı dövrlərin ədəbi prosesinin öyrənilməsinə verdiyi töhfələr insanı heyrətləndirir və sehrləyir. Bir alim, tədqiqatçı olaraq fasiləsiz axtarış və işləməklə elmi şüurunu inkişaf etdirmək, təbiətin bəxş etdiyi bu qabiliyyətləri daha da gücləndirmək üçün hər cür səy göstərməyi bacarır.

İsa Həbibbəylinin elmi maraq sferası geniş və rəngarəngdir, təkcə humanitar elm sahəsi ilə deyil, həm də Vətən taleyi ilə sıx bağlıdır. Onun Azərbaycanın keçmişi, bu günü və gələcəyi ilə bağlı elmi-publisistik, fəlsəfi, siyasi düşüncələri ayrıca müzakirə obyektidir. Elmin inkişaf perspektivləri, milli mədəniyyətin taleyi, müxtəlif şəxsiyyətlərin xalq tarixindəki rolu ilə bağlı düşüncələri və qaldırdığı bir çox problemlər düşüncə ekssentrizmindən, emosional dərinliyindən, qayğıkeşliyindən danışır.

Hər bir insanın öz əhatəsi, hətta bir deyil, bir neçə çevrəsi var. İsa Həbibbəyli kimi ünsiyyətcil və səmimi şəxsiyyətlər mövqelərinə görə hər gün bir çox insanla müxtəlif mövzularda ünsiyyət qurmaq məcburiyyətindədirlər. Mən onlardan birinə – Azərbaycan humanitar elminin elm sahələri ilə qarşılıqlı əlaqələrinə, həm də İsa Əkbər oğlunun şəxsi elmi kəşfləri və nailiyyətləri ilə əlaqəli olanlara toxunmaq istəyirəm.

İsa Həbibbəyli müxtəlif elmi məktəblərin nümayəndələri ilə ünsiyyətini, Rusiya, Tatarıstan, Başqırdıstan Elmlər akademiyalarını, Udmurtiya, Çuvaşiya, Mari El və digər respublikaların fərqli formatlı tədqiqat humanitar institutları ilə elmi əlaqələrini izləməklə, bir insanın həyat yolunun bəzən taleyindən çox dünyanın qovuşma mərkəzinə çevrildiyi qənaətinə gəldim və özü də onların yaradıcısı və təqdimatçısıdır. Səbəbi sadədir: o, başqalarının nailiyyətlərini dəyərləndirmək, həvəsləndirmək və dəstək olmaq üçün sınanmış sözləri tapmaq bacarığına malikdir. Bu şəxsiyyət güclü elmi əlaqələr qurmaq üçün həlledici rol oynayır.

Ancaq məsələ təkcə bunda deyil. Aydındır ki, heç də bütün təşkilatçılar deyil, yalnız bir neçə nəfər elmlə məşğul olmağa və öz elmi məktəbini yaratmağa qadirdir. Bunun üçün perspektivləri görmək və öz sahəsinin əsl peşəkarı olmaq lazımdır. İsa Həbibbəylinin vaxtı qabaqlayan elmi uğurları, elmi təcrübə mübadiləsi, ümumi layihələrin planlaşdırılması, elmi əlaqələr və ilk növbədə, türk xalqları arasında qarşılıqlı faydalı əməkdaşlıq üçün möhkəm zəmin oldu. Bunu təsdiqləmək üçün bir neçə misal göstərmək istərdim.

İsa Əkbər oğlunun elmi potensialını ortaya qoyan ilk mövzu romantizm oldu. Tədqiqatının əhəmiyyəti və orijinallığı sovet ədəbiyyatşünaslığında uzun müddət romantizm və müxtəlif modernist hərəkatların keçmişin izi sayılması ilə müəyyən edilib. Bəzi romantik əsərlər, hətta realistik istiqamətlərdə araşdırılırdı. Belə bir vəziyyətdə İsa Həbibbəylinin 1970-ci illərin sonlarında yazdığı məqalələr, "XX əsrin əvvəllərindəki Azərbaycan romantik lirikası" adlı namizədlik dissertasiyası, "Romantik lirikanın xüsusiyyətləri" monoqrafiyası (Bakı, 1984) Azərbaycan ədəbiyyatında romantizmin yerini müəyyənləşdirmək üçün nəzəri əsas oldu. Onun inkişafının vahid mənzərəsinin canlanmasına töhfə verdi. Hüseyn Cavid, Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Şaiq və başqalarının əsərləri əsasında alim bədii yaradıcılığın bütün sahələrinin mənə və poetik xüsusiyyətlərini müəyyənləşdirə bildi, XX əsrin əvvəllərində poeziyanın və o dövrün ədəbi prosesinin ayrı-ayrı nümayəndələrinin janr və üslub xüsusiyyətlərini qiymətləndirdi. Bu araşdırma digər türkdilli ədəbiyyatşünasların, xüsusilə də tatarların elmi axtarışları ilə uyğun gəldi və beləliklə, türk ədəbiyyatında bədii yaradıcılığın romantik qanadı haqqında fikirləri ədəbi elmə "qaytarmağa" imkan verdi.

Məlumdur ki, ədəbiyyatın özündə romantizm realizmlə və ya neoklassik mədəniyyət növləri ilə paralel olaraq inkişaf edir. Birini vurğulayıb, digərini görməmək mümkün deyil. 1985-ci ildə İsa müəllim yaradıcılığın tərbiyəvi və real paradiqmalarını nəzərdən keçirən "Ədəbi inkişaf" (Bakı) kitabını nəşr etdirdi.

Seçilən istiqamət növbəti elmi mövzunu, bəlkə də, alimə filologiya elmləri doktoru (1996) elmi dərəcəsini qazandıracaq əsas tədqiqat obyektini əvvəlcədən müəyyənləşdirdi. "Cəlil Məmmədquluzadə" (Bakı, 1987), "Cəlil Məmmədquluzadə və ədəbi mühit" (Bakı,1990), "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" monoqrafiyaları buna sübutdur. Cəlil Məmmədquluzadənin və müasirlərinin əsərləri İsa Həbibbəyliyə ədəbi prosesin, Azərbaycan nəzəri və ədəbi düşüncəsinin inkişafının bütün mənzərəsini bərpa etməyə, XIX əsrin sonu-XX əsrin əvvəllərində onun təkamülünün əsas istiqamətlərini və mərhələlərini müəyyənləşdirməyə imkan verdi.

Bu tədqiqatın ən vacib nəticəsi mədəniyyətin dərin diaxronik dəyişiklikləri fonunda "tənqidi realizm", "maarifçilik" anlayışlarının müəyyənləşməsi idi. Maarifçilik hərəkatının başında duran bir sıra görkəmli Azərbaycan mütəfəkkirlərinin həyatının, fəaliyyətinin və yaradıcılığının dərindən araşdırılması, o dövrün ictimai-siyasi və ictimai-mədəni vəziyyətinə aid əvvəllər bilinməyən materialların elmi dövriyyəyə buraxılması nəticəsində məlum oldu ki, Azərbaycanda maarifçilik Avropa və ya rus mədəniyyətindəki mənasından fərqli məzmunla qiymətləndirilir; o bir çox türk xalqlarının intibahına güclü təkan olur. Bu fikir bir vaxtlar bir çox türk xalqları, o cümlədən tatarlar üçün sosial-mədəni yüksəliş platformasına çevrilən "Molla Nəsrəddin" jurnalının materialları ilə daha da möhkəmləndirildi.

İsa Həbibbəyli, eyni zamanda onun milli mahiyyətini və xüsusiyyətlərini müəyyənləşdirmək məqsədilə XIX və XX əsrin tarixi və ədəbi prosesini araşdırır. Onun səyləri sayəsində parlaq və orijinal yazıçıların – Eynəli bəy Sultanov, Məmməd Səid Ordubadi və onlarla digər istedadın ədəbi irsinin "qayıdışı" baş verdi. Bu materialda yalnız tarixi və ədəbi prosesin deyil, həm də bir çox şair və yazıçıların əsərlərini, bu dövrün əsas mətnlərini estetik cəhətdən öyrənmək mümkün oldu.

Onun tədqiqatları və XX əsr Azərbaycan ədəbiyyatı ilə bağlı elmi nəşrləri nəticəsində müxtəlif ədəbi cərəyanların, ədəbi məktəblərin və üslub qollarının bir arada olması üçün estetik cəhətdən əlverişli bir platforma meydana çıxdı. Bu dövrün Azərbaycan ədəbiyyatının salnamələrinin bərpası və "Molla Nəsrəddin" ədəbi məktəbinin Azərbaycan mədəniyyətindəki rolunun konseptual qiymətləndirilməsi məhz İsa Həbibbəyliyə aiddir. Onun tədqiqatları digər türk xalqları, xüsusən də tatarlarda baş verən tarixi və mədəni proseslərin öyrənilməsinə dair yanaşmalarla səsləşir və bəzi situasiyalarda onları qabaqlayır.

1985-ci ildə alim bir kitab nəşr etdirdi: "Ədəbiyyat nəzəriyyəsi" (Bakı, 1985). Bununla belə İsa Əkbər oğlu ədəbiyyat tarixi ilə bağlı əsərlərində həmişə ədəbiyyat nəzəriyyəçisi kimi çıxış edərək istiqamət və cərəyanları, növ və janrları, Azərbaycan ədəbiyyatının poetikasını nəzəri baxımdan öyrənib. Bu cür araşdırma obyektləri arasında ədəbi proses, yenilik, ədəbiyyatda lirizm, tarixi bir roman və ya roman poetikası, janrlar (sonet, qısa hekayə, nağıl və sair), obraz və prototiplər və bir çox başqaları yer alır. Belə yanaşma alimi yeni kəşflərə apardı. Xüsusilə satiranı dördüncü növ kimi fərqləndirmək və Azərbaycan ədəbiyyatında bir sıra janrları müəyyənləşdirmək konsepsiyası ədəbi növlərin və janrların genezis və inkişafının sinkretizm dövründən başlayaraq yenidən nəzərdən keçirilməsini tələb edir.

İsa Həbibbəylinin elmi fəaliyyətinin daha bir istiqamətini qeyd etmək istərdim – bu, postsovet reallıqlarında milli ədəbiyyatın öyrənilməsi konsepsiyasının formalaşmasıdır. Ədəbiyyatşünaslığın XX-XXI əsrlərin sosioloji yanaşmasından qurtulması, milli ədəbiyyatın bədii və estetik spesifikliyi baxımından özünəməxsus, daxili inkişaf qanunları nəzərə alınmaqla öyrənilməsinin əsaslarının axtarışında əksini tapdı. Tarixi quruluşun əsas prinsiplərini müəyyənləşdirmək üçün əvvəlcə keçmiş SSRİ-nin rus olmayan xalqlarının milli tarixi və ədəbi prosesini yenidən nəzərdən keçirməyə ehtiyac var idi.

İsa Əkbər oğlunun bir çox əsərləri həm altmışıncıların novatorluğuna həsr olunmuş, həm Səməd Vurğun ədəbi məktəbinin səciyyəvi cəhətlərini, həm də Məmməd Araz, Nəriman Həsənzadə, Sabir Rüstəmxanlı, Anar, Kamal Abdulla və başqalarının yaradıcılığının əsas istiqamətlərini müəyyənləşdirməyə yönəldilmişdir. Alim ədəbiyyatı XX və XXI əsrin əvvəllərində Azərbaycan anlayışının daxili məntiqini, milli bədii şüurun hərəkət istiqamətlərini və dinamikasını dərk edərək öyrənir. Nəticədə, milli ədəbiyyatın ümumi tarixinə yeni yanaşmaların müəyyənləşdirilməsi zərurətinə cavab verən "Azərbaycan ədəbiyyatı tarixinin dövri konsepsiyası və onun inkişaf mərhələləri" monoqrafiyası (Bakı, 2019) işıq üzü gördü.

Əslində, monoqrafiya təkcə Azərbaycan ədəbiyyatının dövrləşdirilməsində deyil, həm də türk xalqları ədəbiyyatının dünya xalqları ədəbiyyatının üzvi hissəsi kimi parlaq adlarla, əlamətdar əsərlərlə əhatəli anlaşılmasında pioner oldu. Bu əsərin dərinliyi və genişliyi Azərbaycan ədəbiyyatı tarixini türklərin mədəniyyət tarixinin əsas tərkib hissəsi kimi təqdim etməsindədir. İlk dəfə ortaya qoyulan tarixi və ədəbi ümumiləşdirmələrin düzgünlüyünə "geri qaytarılmış" ədəbi abidələr və antoloji xarakterli yeni nəşrlər vasitəsilə nail olunur.

Belə ki, qədim (qədim dövrlərdən VII əsrə qədər) və yazılı ədəbiyyatın ümumi başlanğıcı (VII-X əsrlər) ideya-bədii orijinallığı qədim türk sivilizasiyasının bədii təfəkkürü çərçivəsində nəzərdən keçirilir. İntibah dövrünün Azərbaycan ədəbiyyatı nümunəsindən (XI-XII əsrlər) istifadə edərək Azərbaycan ədəbiyyatında sıçrayışın səbəbləri yüksək elmi səviyyədə ətraflı təhlil edilir: bu, müsəlman və Şərq intibah dövrlərinin təsiri və ümumi türk folkloru və mifoloji nümunələridir. Orta əsrlər ədəbiyyatı (XIII-XVI əsrlər) anadilli ədəbiyyatın yaranma dövrü kimi müəyyənləşdirilir.

Xüsusi olaraq qeyd etməliyik ki, İsa Həbibbəyli formalaşan ədəbi cərəyanların dinamikası ilə Azərbaycan ədəbiyyatını daha da inkişaf etdirməyi düşünür. Alimin fikrincə, XVI əsrdə Şərq romantizmi öz dövrünü tamamlayır. Növbəti tarixi-ədəbi mərhələnin (XVII-XVIII əsrlərin ədəbiyyatı) bütövlüyü erkən realizmin, XIX əsrdə isə maarifçi realizmin formalaşmasına bağlıdır. Türk ədəbiyyatına belə bir dinamik yanaşma onların tarixinin daha da öyrənilməsi və qurulması üçün çox vacibdir.

Alim maarifçilik realizmini "Azərbaycan ədəbiyyatının lokomotivi" adlandırır və milli ədəbiyyatın inkişafının növbəti mərhələsində (tənqidi realizm və romantizm dövrü, 1890-1920-ci illər) maarifçilik motivləri və sentimentalizmi ortaya qoyur. Sovet dövründə bir çox türkdilli ədəbiyyatda maarifçiliyin yalnız 1905-ci ilə qədər mövcud olduğu düşünülürdü və bu münasibət onların öyrənilməsində bir çox səhvlərə səbəb olurdu.

Sosialist realizm dövrünün (1920-1960) və müvafiq ədəbi, ideoloji kanonların tədqiqi də nəzəri düşüncə ilə, milli-mədəni şəxsiyyət amillərini, janr, üslub və poetika problemlərini müəyyənləşdirməklə aparılmışdır. Sovet dövründə Azərbaycan ədəbiyyatında ideoloji əsərlərin az olmasını vurğulayan alim, ön planda insan fəlsəfəsi, milli və ya tarixi problemlərin olduğu bütöv əsərləri ortaya çıxarır. Bu materialın təhlili və ümumiləşdirilməsi alimi bu dövrdə Azərbaycan ədəbiyyatında genişmiqyaslı dəyişikliklərin başlandığı qənaətinə gətirir. O qeyd edir ki, artıq 1950-ci illərdə Azərbaycan ədəbiyyatında altmışıncı illərdə yaşanan avanqard dəyişmənin tendensiyaları hiss olunmaqdaydı.

Azərbaycan ədəbiyyatı tarixindəki növbəti mərhələni İsa Həbibbəyli "milli-mənəvi özünüdərk və suverenlik idealları, modernizm dövrü" adlandırır (1960-1990). Bu materialda avanqard yazıçıların əsərlərinin əsasını təşkil edən yeni hadisələrin bədii və estetik mahiyyəti ortaya qoyulur. Oxşar meyillər: milli kimliyi müəyyənləşdirmə proseslərinin intensivləşməsi, sosialist realizmini dəyişdirməyin yollarının axtarılması 1960-1980-ci illər tatar ədəbiyyatında da müşahidə olunur. Bu dövrə tatar ədəbiyyatının milli mənbələrə dönüş dövrü deyirik.

Əlavə olaraq elm adamları ötən əsrin sonlarındakı və XXI əsrin əvvəlindəki milli tarixi və ədəbi proses nəzəriyyəsini əvvəlki ideoloji və mədəni əlamətlərin rədd edilməsi, yeni ədəbi janr və üslubların inkişafı ilə əlaqəli bir keçid dövrü kimi təqdim edirlər. Bu dövrü akademik "Müstəqillik dövründə (1991-ci ildən) Azərbaycanın çoxmetodlu ədəbiyyatı" adlandırır. Müəllif, müxtəlif bədii sistemlərin: neorealizm, modernizm, postmodernizm, sehrli realizm elementlərinin birgə təşəkkülünü və qarşılıqlı təsirini postsovet dövrü Azərbaycan ədəbiyyatının inkişafının kifayət qədər dolğun mənzərəsi kimi təqdim edir.

Beləliklə, "Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirmə konsepsiyası və onun inkişaf mərhələləri" monoqrafiyası alimin bütün ədəbi tədqiqatlarını özündə cəmləşdirib. Nəzəri tədqiqat ona milli ədəbiyyatşünaslıq üçün xüsusi vasitələr yaratmağa, doğma ədəbiyyat tarixini öyrənməyə – onun inkişafının

*Ardı 3-cü səhifədə*

ayrılmaz bir sistemini yaratmağa imkan verib. Azərbaycan və bütün türkdilli ədəbiyyatlar monoqrafiyada dünya mədəniyyətində özünəməxsus yer tutan, mənəvi və praktik bir təhsil kimi görünür. Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirmə konsepsiyası ortaq ədəbi və bədii dəyərləri sistematik şəkildə dərk etmək yolu ilə Türk dünyası tarixinin dövrləşdirmə variantlarından birinə çevrilir.

Bu nöqteyi-nəzərdən İsa Həbibbəyli 11 sentyabr 2019-cu ildə Kazanda "İndiki mərhələdə milli ədəbiyyat: elmi anlayışlar və fərziyyələr" adlı dəyirmi masada çıxış etdi. Onun sözləri: "Türk xalqları ədəbiyyatının dövrləşdirilməsi və inkişaf mərhələlərinin müəyyənləşdirilməsi müasir dünyada qurulma və inkişaf üçün perspektivlər açır – daha çox məhsuldar mədəni və ədəbi əlaqələrin çoxəsrlik tarixi və ədəbi ənənələrinə istinad etməklə" Tatarıstan tərəfinin milli araşdırma mövzusunda müzakirə mühitini yaratmaq istəklərinə uyğundur.

Qeyd etmək lazımdır ki, Azərbaycanda İsa Həbibbəylinin təşəbbüsü ilə postsovet elmi məkanında ən cəlbedici çoxşaxəli tədqiqat sahələrindən biri təşkil olunmuşdur ki, bu da bir tərəfdən, humanitar, təbiət və texniki elmlər arasında qarşılıqlı əlaqələrin inkişafına, digər tərəfdən isə müxtəlif ölkələr və xalqların elmi əlaqələrinin möhkəmləndirilməsinə xidmət edir. Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən Müstəqil Dövlətlər Birliyinə üzv dövlətlərin Humanitar Əməkdaşlıq üzrə Dövlətlərarası Fondu və Birgə Nüvə Tədqiqatları İnstitutu ilə birlikdə 2013-cü ildən etibarən hər il keçirilən "Fizika və lirika: dünya təcrübəsi və birlik ölkələrinin elm və ədəbiyyatı həqiqətləri" adlı beynəlxalq elmi seminardan bəhs edirik. Fənlərarası inteqrasiyanın bu yeni modeli birgə beynəlxalq layihələrin həyata keçirilməsinə təkan verir.

İsa Həbibbəyli türk xalqlarının ədəbiyyatının öyrənilməsində böyük rol oynayır. Onun Füzuli, Nəvai, Çingiz Aytmatov və dünya ədəbiyyatının bir çox görkəmli nümayəndələrinin əsərləri, ümummilli lider Heydər Əliyevin, Mustafa Kamal Atatürkün fəaliyyəti ilə əlaqəli tədqiqatları, ictimai, mədəni, həm də tarixi baxımdan fikirləri dünyagörüşünün genişliyinə dəlalət edir.

Məqaləmiz bir insanın, alimin, ictimai xadimin həyat hekayəsi kimi düşünülmüşdü. Onun keçdiyi və bir çoxunu arxasınca apardığı yolun təsviri kimi. Lakin milli humanitar və türk xalqları elminin tarixi səhifələri ortaya çıxdı. Göründüyü kimi, sirr İsa Həbibbəylinin həyatı, fəaliyyəti, elmi kəşfləri və uğurlarının bu mühit ilə bağlı olmasındadır. Xarakterinin, "mən"inin əsasını təşkil edən iti ağlı, düşüncə genişliyi, nəcibliyi, qayğıkeşliyi, həmişə obyektiv olmaq cəhdi, ağıl və sadəliyi həyatında, uğur və nailiyyətində əsas rol oynayır.

İsa Həbibbəyli haqqında çox danışmaq və yazmaq olar... O, çoxyönlüdür. Qoy günün qəhrəmanına müraciət həyatında yeni istiqamətlərin müqəddiməsi kimi səslənsin. Tatarıstanın akademik elmi ictimaiyyəti adından Sizə möhkəm cansağlığı, uzun ömür, müqəddəs elm naminə məhsuldar və yaradıcı fəaliyyət arzulayıram. Sizin böyük elmə aparan yolunuz işinə həvəsli olan və əlbəttə, öz yolunu açmaq istəyən gənclər üçün bir nümunə, tarixin başlanğıcı olacaqdır.

**Daniya ZAQİDULLİNA**
*Tatarıstan Respublikası Elmlər Akademiyasının vitse-prezidenti, akademik*

## Vəzifələr icra edilir

Naxçıvan Muxtar Respublikasında ailə, qadın və uşaq hüquqlarının qorunması, həmçinin qəbul edilmiş dövlət proqramlarından irəli gələn vəzifələrin icrası sentyabr ayında da diqqətdə saxlanılmış, seminar, monitorinq və tədbirlər keçirilmiş, sərgi-satışlar təşkil olunmuşdur.

Aztəminatlı ailənin üzvü və sağlamlıq imkanları məhdud 5 qadının peşə kurslarına cəlb olunması, məşğulluq probleminin aradan qaldırılması ilə bağlı müraciət etmiş 2 qadının isə işlə təmin edilməsi üçün məlumatlar aidiyyəti orqanlara göndərilmişdir. "Arıçılıq məhsulları – bal festivalı"nda 76 istedadlı qadının 385 əl işi nümayiş olunmuş, 18 qadının 35 əl işi satılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun 2019-cu il üçün İş Planına uyğun olaraq məhdud fiziki imkanlıların və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satışı keçirilmiş, Şahbuz şəhərində uzunömürlü Ceyran Qafarovanın anadan olmasının 110 illiyi qeyd olunmuşdur. Babək rayonunun Kərimbəyli kəndində "Reproduktiv sağlamlıq və ailə dəyərləri", məktəbəqədər təhsil müəssisələrində isə sanitargigiyenik vəziyyətlə bağlı maarifləndirici seminarlar keçirilmiş, müvafiq mövzularda maarifləndirici broşürlər paylanılmışdır.

Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının qorunması ilə əlaqədar 2 uşaq müəssisəsində monitorinq aparılmış, uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankına uşaqlar haqqında fərdi məlumatların yeni proqrama uyğun yerləşdirilməsi davam etdirilmişdir. Sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası ilə bağlı işlər görülmüş, 25 uşaq ümumtəhsil məktəblərinə və müalicə-reabilitasiya müəssisələrinə cəlb olunmuş, Bilik Günü ilə əlaqədar aztəminatlı ailələrdən olan 42 uşağa məktəbli paltarı və dərs ləvazimatları verilmişdir. Ali və orta ixtisas təhsili müəssisələrinə daxil olan xüsusi qayğıya ehtiyacı olan tələbələrlə görüş keçirilmiş, onlara hədiyyələr təqdim edilmişdir. Uşaqların asudə vaxtlarının səmərəli təşkili məqsədilə aid orqanlarla birlikdə M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında "Buratino" tamaşasına baxmağa valideyn himayəsindən məhrum və aztəminatlı ailələrdən olan 80 uşaq cəlb olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*AMEA Naxçıvan Bölməsində cari ilin doqquzaylıq elmi və elmi-təşkilati fəaliyyətinin yekunlarına həsr edilən hesabat tədbiri keçirilib.*

## Bir sıra elmi nailiyyətlər qazanılıb

Bölmənin sədri, akademik İsmayıl Hacıyev elmi müəssisələrdə müvafiq istiqamətlər üzrə aparılan tədqiqatlardan, eləcə də elmi-təşkilati işlərdən danışıb. O, bölmə institutlarında bir sıra nailiyyətlərin əldə olunduğunu bildirib.



Daha sonra bölmənin Elmi-təşkilat şöbəsinin müdiri, aqrar elmlər üzrə fəlsəfə doktoru Orxan Bağırov cari ilin doqquz ayında aparılan elmi-tədqiqat işlərinin nəticələrini diqqətə çatdırıb. Qeyd edib ki, bu dövrdə bölmə əməkdaşlarının 17 monoqrafiyası, 8 kitabı, 2 metodik vəsaiti, 417 elmi məqaləsi, 156 konfrans materialı və bir tezis olmaqla, 602 elmi əsəri nəşr edilib.

Bildirilib ki, doqquz ay ərzində bölmənin "Elmi əsərlər" jurnalının üç, "Axtarışlar" jurnalının isə iki nömrəsi çapdan çıxıb. Bundan əlavə, bölmədə "Nemətullah Naxçıvani: taleyi və sənəti" məqalələr toplusu və "Naxçıvan Duzdağı" kitabları nəşr olunub, "Ərtoğrol Cavid: taleyi və sənəti" məqalələr toplusu isə çapa təqdim edilib. Bölmədə yerinə yetirilən iki respublika səviyyəli qrant layihəsinə yekun vurulub, ikisi beynəlxalq, biri respublika səviyyəli olmaqla, 3 qrant layihəsinin icrası isə davam etdirilir.

Orxan Bağırov qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Görkəmli alim Nemətullah Naxçıvani irsinin öyrənilməsi və tədqiqi haqqında" 2018-ci il 29 oktyabr tarixli Sərəncamına əsasən bölmədə "Görkəmli Azərbaycan mütəfəkkiri: Nemətullah Naxçıvani" mövzusunda beynəlxalq konfrans keçirilib.

Diqqətə çatdırılıb ki, bu dövrdə Türkiyə, İran, Rusiya, Gürcüstan, ABŞ və Fransanın elm və təhsil müəssisələrinin alim və tədqiqatçıları ilə sıx elmi əməkdaşlıq edilib. Türkiyənin İqdır Universiteti ilə əməkdaşlığa dair memorandum imzalanıb. Eyni zamanda bölmənin 55 əməkdaşı respublikada və xaricdə keçirilən 23 beynəlxalq simpozium, konfrans və tədbirlərdə məruzələrlə çıxış edib.

Bildirilib ki, akademik İsmayıl Hacıyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2019-cu il 8 fevral tarixli Sərəncamı ilə "Naxçıvan Azərbaycanın dövlətçilik tarixində" kitabına görə Naxçıvan Muxtar Respublika mükafatına layiq görülüb. Həmçinin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif edilib. O, "Dünya dini liderlərinin II Bakı sammiti"nin keçirilməsi ilə əlaqədar yaradılan Təşkilat komitəsinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun Himayədarlar Şurasının üzvü seçilib.

Məruzədə bölmənin digər əməkdaşlarının da elmi uğurlarından bəhs olunub.

Sonra çıxışlar dinlənilib.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Sabahın müəllimləri ümumtəhsil məktəblərində təcrübə keçirlər



Muxtar respublikada ixtisaslı kadr hazırlığı təhsil siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara himayəyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamı yüksəkixtisaslı kadr hazırlığı və innovasiyaların yaradılması istiqamətində yeni vəzifələr müəyyənləşdirir.

Təhsildə keçirilən "Sabahın müəllimi", "İnteraktiv dərs", "Nümunəvi dərs", "Elektron universitet", "Distant təhsil", "Dərsdən sonra" layihələri hazırda təhsilin inkişafına xidmət edən, muxtar respublikada innovativ təcrübəli gənclərin formalaşmasına müsbət təsir göstərəcək yeni layihələrdir. "Sabahın müəllimi" layihəsinin də əsas məqsədi pedaqoji profilli ixtisaslarda oxuyan tələbələrə təhsildəki yeniliklər haqqında məlumat verilməsi, onların ümumtəhsil məktəblərində pedaqoji təcrübələrinin təşkili, ali təhsil müəssisələrinin dərslik və metodik vəsaitlərlə təmin olunması, tələbələrin həmin elmi nəşrlərin müzakirəsində iştirakının təşkili, onların innovasiyaya əsaslanan, yaradıcı düşüncəni əks etdirən yeni layihələrinin (startapların) dəstəklənməsi, müəllim təcrübəsinin paylaşılması və məzunların işlə təmin edilməsindən ibarətdir.

Müəllimlik peşəsinə marağı olan gənclər konkret ideal təsəvvürlərə malik olmalı, davranış və həyat amalında dəqiq hədəf seçimi aydın olmalı, müəllimin şəxsi nümunəsi sabahın müəllimlərinin yetişməsinə öz təsirini göstərə bilməlidir. Daimi çalışqanlıq, davamlı dinamizm bu peşədə təkmilləşməni şərtləndirən əsas amillərdən olduğundan müasir müəllim yenilikləri sınaqdan keçirməyə hazır olmalı, müasir elektron vasitələrdən istifadə etməklə dərslərini qura bilməlidir.

Kadr hazırlığının ən vacib sahələrindən biri pedaqoji təcrübədir. Həmin prosesdə tələbələrin ali məktəblərdə aldıqları bilik dərinləşir, onlar pedaqoji iş sahəsində yeni bacarıq və vərdişlərə yiyələnirlər. Mütəxəssis hazırlığı məhz praktik yolla başa çatır, nəzəri biliklər pedaqoji təcrübə müddətində əyani şəkildə tətbiq edilməklə mənimsənilir. Bu yolla pedaqoji təfəkkür və qabiliyyət formalaşır ki, bunlar da pedaqoji səriştənin səbəb halında möhkəmlənməsinə səbəb olur. Pedaqoji təcrübə kadrları bir mütəxəssis kimi tam formalaşdırır. Onu da qeyd edək ki, Naxçıvan Dövlət Universitetinin, Naxçıvan Müəllimlər İnstitutunun, "Naxçıvan" Universitetinin Təhsil Nazirliyinə hamiliyə verilmiş müvafiq ixtisasların tələbələri ilə təcrübəqabağı konfrans keçirilib. Ümumilikdə, 569 tələbə 1 oktyabr – 15 noyabr tarixlərdə Heydər Əliyev adına tam orta məktəbdə, Naxçıvan Qızlar Liseyində, Naxçıvan şəhərində yerləşən digər 14 tam orta məktəbdə və Babək rayon Kərimbəyli və Şıxmahmud kənd tam orta məktəblərində pedaqoji təcrübədədir. Təhsil Nazirliyi tərəfindən onların nizam-intizam qaydalarına riayət etmələri, kütləvi tədbirlərdə iştirakı, yüksək səviyyədə praktik iş qabiliyyətinə yiyələnmələri diqqətdə saxlanılır, təcrübə dövründə sabahın müəllimlərinin orta məktəblərdə açıq dərsləri təşkil olunur. Müasir metodların tələblərinə cavab verən dərslərdə şagirdlərdə yüksək səviyyəli düşüncə qabiliyyətinin inkişaf etdirilməsi üçün İKT vasitələrindən, fənn laboratoriyalarından geniş istifadənin əhəmiyyəti izah edilir. Təcrübə dövründə keçilən dərslərin müzakirəsi aparılır, tələbələrə düzgün istiqamətlər verilir və onlara metodik köməklik göstərilir.

Təcrübələrin bu şəkildə təşkili gələcəkdə ümumtəhsil məktəblərinin öz peşəsini dərindən bilən, müasir təlim metodlarından səmərəli istifadə edən bilikli və bacarıqlı müəllimlərlə təminatını yaxşılaşdıracaqdır.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

***Dünən Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi və Bəstəkarlar Təşkilatının birgə təşkilatçılığı ilə muxtariyyətin 95 illiyinə həsr olunmuş "Səni tərənnüm edirəm, doğma Naxçıvan" devizi ilə peşəkar və həvəskar bəstəkarlar arasında mahnı müsabiqəsi keçirilib.***

## Muxtariyyətin 95 illiyinə həsr olunmuş mahnı müsabiqəsi

Müsabiqənin aparıcısı bildirib ki, əsrə yaxın bir dövrdə muxtar dövlət statusu daşıyan Naxçıvan Muxtar Respublikasının yaradılmasının 95 illiyi münasibətilə muxtar diyarımızda silsilə tədbirlər keçirilir. Mahnı müsabiqəsi də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 21 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı"na əsasən təşkil edilib.



Qeyd olunub ki, müsabiqənin əsasnaməsi və təşkilat komitəsinin tərkibi əvvəlcədən təsdiq edilərək müvafiq mədəniyyət müəssisələrinə göndərilib. Qaliblər iki – professional və həvəskar bəstəkarlar nominasiyaları üzrə münsiflər heyəti tərəfindən müəyyənləşdiriləcək.

Sonra münsiflər heyəti elan edilib və müsabiqəyə start verilib. İfaçıları Naxçıvan Dövlət Filarmoniyasının Kamera, Estrada və Xalq Çalğı Alətləri orkestrləri, həmçinin Naxçıvan Musiqi Kollecinin "Buta" muğam ansamblı müşayiət edib.

Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natəvan Qədimova çıxış edərək muxtariyyətin son 20 ildən çox dövrü ərzində bütün sahələr üzrə əldə olunan nailiyyətlərə, xüsusən mədəniyyət sahəsindəki uğurlara görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib. Nazir 10 nəfər müəllifin 11 əsərinin səsləndirildiyi mahnı müsabiqəsinin iştirakçılarına uğurlu çıxışlarına və münsiflər heyətinə obyektiv qərarına görə təşəkkür edib, qalibləri təbrik edib, onlara yaradıcılıq uğurları arzulayıb.

Muxtar respublikanın Bəstəkarlar Təşkilatının sədri Yaşar Xəlilov mahnı müsabiqəsinin yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirib, bu cür müsabiqələrin muxtar diyarımızda sənət adamlarının yaradıcılıq fəaliyyətinə müsbət təsir göstərdiyini deyib.

Müsabiqənin münsiflər heyətinin yekun qərarına əsasən "Professional bəstəkarlar" nominasiyası üzrə I yerin qalibi Yaşar Xəlilov, "Həvəskar bəstəkarlar" nominasiyası üzrə I yerin qalibi Əkrəm Məmmədli, II yerin qalibləri Nizami Məmmədov, Nazilə Qardaşbəyova, III yerin qalibləri isə Vidadi Heydərov və Hakim Məmmədov olublar.

Qaliblərə diplom və mükafatlar təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

Mütəxəssis sözü

## Payızlıq buğda əkininin düzgün aparılması məhsuldarlığın əsasını təşkil edir

*Buğda əsas ərzaq bitkisidir. Yer üzərindəki insanların 70 faizi bu məhsulla qidalanır. O, yüksək qidalılıq və dad keyfiyyətlərinə malikdir, orqanizm tərəfindən yaxşı mənimsənilir. 1 kiloqram buğda çörəyində 2000-2500 kalori enerji, quru çəkidə 16-17 faiz zülal vardır. Buğda ununun çörəyində bunlardan başqa B vitaminləri kompleksi (B1,B2 və sair) və PP vitamini, həmçinin insan orqanizmi üçün vacib olan mineral birləşmələr – kalsium, fosfor, dəmir və başqa elementlər də vardır.*



Son illər aparılmış arxeoloji qazıntılar bu bitkinin Naxçıvan Muxtar Respublikasında qədim tarixə malik olmasını bir daha sübut edib. Hazırda buğdanın 22 növü məlumdur. Onlardan ikisi – yumşaq və bərk buğda növləri dünyada ən çox yayılanlarıdır.

Buğdanın bütün növləri birillikdir. Bu bitki 3 qrupa bölünür – payızlıq, yazlıq və yarımpayızlıq. Payızlıq buğda özünün ilkin boy və inkişafı üçün uzun müddət aşağı temperatur tələb edir, yazlıq buğdalar isə 0°C-dən yuxarı temperaturda inkişaf mərhələsinə keçərək böyüyür və məhsul verir. Buğda bitkisi min illər ərzində həyat şəraiti amillərinə uyğunlaşaraq külli miqdarda ekoloji qruplara bölünüb. Bərk buğda düzənlik bitkisi kimi, əsasən, yazlıq formada olur. Yumşaq buğda yeni mühit şəraitinə çox tez uyğunlaşır, düzənlik, meşə-düzənlik, həmçinin şoran, yarımsəhra və qaratorpaq olmayan ərazilərdə əkilir.

Payızlıq buğdanın səpini payızda kənd təsərrüfatı işlərinin nisbətən az olduğu vaxtlarda aparılır. Bu isə bitkilərin payız, qış və yaz yağışlarından tam istifadə etməsinə, məhsulun sahədən yazlıq taxıllara nisbətən tez yığılmasına və yüksək məhsul verməsinə şərait yaradır. Payızlıq buğdanın ən yaxşı xüsusiyyətlərindən biri də onunla izah edilir ki, o, öz vegetasiya dövrünü may-iyun aylarında qurtarır. Bu da həmin sahələrdə digər kənd təsərrüfatı bitkilərinin əkilməsi üçün çox əlverişlidir. Payızlıq buğda yazlığa nisbətən yüksək və keyfiyyətli məhsulvermə qabiliyyətinə malikdir. Onun əlverişsiz şəraitə davamlılığı, birinci növbədə, sortun bioloji xüsusiyyətlərindən asılıdır.

Buğda bitkisinin aqrotexnikası səpin üçün torpağın hazırlanmasından başlayır. Məsləhət görülür ki, əsas şumdan qabaq sahəyə 20-30 ton üzvi gübrə, fosfor (200 kiloqram/hektar, fiziki çəkidə) və kalium (80 kiloqram/hektar) gübrələri ilə birlikdə əsas gübrə şəklində torpağa verilsin. Əsas şum 28-30 santimetr dərinliyində aparılmalıdır. Şumdan dərhal sonra sahə diskli mala ilə malalanmalı, sahə bir qədər hamarlanmalıdır. Səpinə 15-20 gün qalmış sahə suvarılmalıdır. Səpinqabağı sahədə 12-15 santimetrlikdə ikiləmə şumu aparılır, bununla da alaq otları məhv edilir. Bundan sonra sahə üzlənərək bir qədər də hamarlanmalı və toxum səpini aparılmalıdır. Səpin üçün hazırlanmış toxum materialı alaq toxumlarından təmizlənmiş olmalı, dərmanlanmalıdır.

Muxtar respublikada optimal səpin müddəti oktyabrın ikinci yarısı və ya noyabrın əvvəlinə təsadüf edir. Bu vaxtda səpilmiş toxumdan alınmış cücərtilər qış şaxtalarına qədər yaxşı böyüyür və kollanır. Belə halda onların şaxtaya dözümlülükləri artır və qışı yaxşı keçirməyə müvəffəq olurlar.

Səpinin dərinliyi torpaq tiplərindən asılıdır. Belə ki, ağır torpaqlarda 4-5, ortagillicəli torpaqlarda 5-6, yüngül qumsal və qumlu torpaqlarda isə 6-7 santimetr dərinlikdə olmalıdır. Nəmişlik çatmayan torpaqlarda səpin dərinliyi bir qədər artırılır və 9-10 santimetrə çatdırılır.

Bitkilərə payız vaxtında edilən qulluq onun yaxşı qışlamasını təmin edir və gələcəkdə yüksək məhsul yaranmasına şərait yaradır. Payız yemləməsində hər hektara 30 kiloqram (təsiredici maddə ilə) fosfor və kalium gübrələrinin verilməsi mütləqdir.

Vegetasiyanın yaz dövründə bitkilərin yemləndirilməsi əsas qulluq işlərindən sayılır. Çünki qışlamadan çıxan bitkilər mineral qidalanmaya böyük ehtiyac duyurlar. Buna səbəb payız-qış dövründə azotun güclü mənimsənilməsi və müxtəlif itkilərə uğraması nəticəsində torpaqda azot qıtlığının baş verməsidir. Odur ki, bitkilərin bu dövrdə azotla yemləndirilməsi bitkilərin boy və inkişafını gücləndirir və yaxşı kollanmasına səbəb olur. Hər hektar sahəyə 200-250 kiloqram (fiziki çəkidə) ammonium şorasının verilməsi məsləhət görülür, toz şəklində superfosfatın 100 kiloqram və 50 kiloqram kalium xloridlə birlikdə o, daha yaxşı nəticə verir. Qeyd edilən gübrələr verildikdən sonra sahənin suvarılması çox zəruridir.

Payızlıq buğdanın əkinlərini yazda ziqzaq mala ilə malalamaq çox yaxşı səmərə verir. Bundan başqa, malalama zamanı bitkilərdə qurumuş və ya xəstələnmiş yarpaqlar qoparılır, nəticədə, bitkilərin havalanması yaxşılaşdırılır, xəstə yarpaqlar bir qədər kənarlaşdırılır.

Payızlıq buğdanın məhsulu tam yetişmə fazasında yazlıqdan fərqli olaraq yerə tökülmür və yığım gecikdikdə sahədə gövdə üzərində cücərmir. Ancaq yığımın gecikməsi dən itkisinə və dənin keyfiyyətinin pisləşməsinə səbəb olur. Məhsul yığımının düzgün təşkili üçün ayrı-ayrı sahələrdə müşahidələr aparılmalı və ilk olaraq yaxşı yetişmiş sahələrdə yığım aparılmalıdır. Ümumi yığım kampaniyası 8-10 günə başa çatdırılmalıdır.

Qeyd edək ki, muxtar respublikada taxılçılıqda zəngin təcrübə qazanılıb. Son illərdə taxılçılıqla məşğul olan torpaq mülkiyyətçilərinə yüksək reproduksiyalı toxumların, subsidiyaların verilməsi, diyarımıza yeni texnikaların gətirilməsi, istehsal olunmuş məhsulun saxlanılması üçün anbarların tikilməsi taxılçılığa marağı artırıb. Taxılçılıq sahəsində qazanılan müvəffəqiyyətlərdən ruhlanan torpaq mülkiyyətçiləri gələn ilin bol məhsulunun əsasını qoymaq üçün əkin işlərini intensiv şəkildə həyata keçirirlər.

**Lamiyə QULİYEVA**

***Naxçıvan Müəllimlər İnstitutunun baş müəllimi***

## Dəyirmi masa



***Oktyabrın 15-də Naxçıvan Muxtar Respublikası Turizm Departamentində "Turizm könüllüləri" layihəsinə qoşulan tələbələrin iştirakı ilə "Müstəqillik illərində turizm sahəsində qazanılmış uğurlar" mövzusunda dəyirmi masa keçirilib.***

Tədbiri giriş sözü ilə Turizm Departamentinin direktoru Əkbər Novruzov açaraq qeyd edib ki, qədim diyarımızın geniş turizm potensialı var və bu turizmin bir çox növünün inkişafına zəmin yaradır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə son illər qədim diyarın tarixi-mədəni irsinin tanıdılması, müalicə mərkəzlərinin yenidən qurulması, həyata keçirilən abadlıq-quruculuq işləri turizmin inkişafına təkan verib. Bunun nəticəsində muxtar respublikaya üz tutan turistlərin sayı ilbəil artır.

Tədbirdə "Nəqşicahan Holdinq Şirkətlər Qrupu" MMC-nin iqtisadi məsələlər üzrə direktor müavini Rifat Mahmudov, Naxçıvan Dövlət Universitetinin Bələdiyyə və turizm kafedrasının müdiri Flora Kərimova və "Naxçıvan" Universitetinin İqtisadiyyat fakültəsinin dosenti Əli Cabbarovun çıxışları dinlənilib.

Sonra mövzu ətrafında mühazirələr aparılıb, suallar cavablandırılıb.

**Pərviz HACILI**

## Beynəlxalq turnirdə ikinci turun oyunları keçirilib



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası və Naxçıvan Futbol Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən 13-14 yaşlı futbolçular arasında "Naxçıvan kuboku – 95" beynəlxalq turnirində ikinci turun oyunları başa çatıb.

Əvvəlcə meydana Özbəkistan Respublikasının "Əndican" və Azərbaycanın "Rekord" komandaları çıxıb. Daha üstün oyun sərgiləyən özbək təmsilçisi meydanı 7:2 hesablı qələbə ilə tərk edib.

Günün ikinci görüşündə "Qarabağ" Özbəkistan təmsilçisi "Qaraqalpaqıstan" komandasını sınağa çəkib. Oyunda hesabı açan özbək komandası olsa da, sonda Azərbaycan təmsilçisi qələbə qazanıb – 2:1.

Şərur Olimpiya İdman Kompleksinin stadionunda keçirilən beynəlxalq turnirdə bu gün azarkeşlər III turun oyunlarına şahidlik edəcəklər. Belə ki, $11^{00}$-da başlayacaq görüşdə meydana "Əndican" və "Qarabağ" komandaları çıxacaq. Saat $13^{00}$-da isə "Araz-Naxçıvan" "Qaraqalpaqıstan" komandası ilə qarşılaşacaq.

Qeyd edək ki, turnirə oktyabr ayının 18-də yekun vurulacaq.

Oyunlardan sonra baş məşqçilərin fikirlərini öyrəndik:



***Şahruh İşanov Maratoviç – "Əndican" komandasının baş məşqçisi:*** – İlk olaraq turnirin təşkilatçılarına minnətdarlığımızı bildiririk. Burada bizi çox gözəl qarşıladılar və özümüzü evimizdəki kimi hiss edirik. Turnirə dəvət aldıqda çox sevindik. Bura gəlmək, yerli sakinlər ilə tanış olmaq və futbolçular arasında münasibət qurmaq bizlər üçün xoşdur. Turnirin təşkilatçılığı yüksək səviyyədədir. Komandamız kompleksdə yerləşib və burada idmançılarımızın qidalanması, onların məşq etməsi üçün hər bir şərait yaradılıb. Artıq iki görüşdə meydanı qələbə ilə tərk etmişik. Etiraf edim ki, turnirin qalibi olub qazanacağımız kuboku Naxçıvandan xatirə saxlamaq istəyirik. Digər tərəfdən, qazancımız yeni dostlardır. Qarşıdakı illərdə təşkil edəcəyimiz turnirlərə Naxçıvan komandasını da mütləq dəvət edəcəyik. Bu dostluq ənənələrini davam etdirmək istəyirik.



***Mostafa Qaraxani – "Rekord" komandasının baş məşqçisi:*** – Turnirin təşkilatçılığı mükəmməldir. Düzdür, komandamız turnirdə qələbə qazanmayıb, buna baxmayaraq, biz burada daha çox təcrübə toplayırıq. Naxçıvanı gəzdim, çox gözəl təbiəti və gözəl şəhəriniz var. İstər qaldığımız oteldə, istərsə də küçədə insanlar bizim qonaq olduğumuzu bilib ünsiyyət qurur, turnir barədə fikirlərimizi öyrənirlər. Təşkil ediləcək növbəti turnirdə böyük məmnuniyyətlə iştirak edəcəyik. Bizə göstərilən diqqətə görə təşkilatçılara minnətdarlığımı bildirirəm.

## Hakimlərimiz üçün növbəti seminar

Naxçıvan Muxtar Respublika Stadionunun iclas zalında Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) və Naxçıvan Futbol Federasiyasının (NFF) təşkilatçılığı ilə futzal hakimləri üçün seminar keçirilib.

AFFA-nın Hakimlər Komitəsinin üzvü FİFA referisi Elçin Məmmədov və milli dərəcəli hakim Nicat İsmayıllının iştirakı ilə reallaşan seminarın məqsədi futbol hakimliyi ilə bağlı nəzəri və təcrübi biliklərin artırılmasıdır. Ölkədə yeni futbol hakimlərinin formalaşdırılması məsələsinə AFFA tərəfindən xüsusi önəm verildiyini bildirən Elçin Məmmədov birgə əməkdaşlıq nəticəsində Naxçıvanda hakimlərin təkmilləşdirilməsi üçün atılan addımların sevindirici olduğunu diqqətə çatdırıb.

Seminar oktyabrın 18-dək davam edəcək, iştirakçılara oyun qaydaları ilə bağlı vəsaitlər, hakim ləvazimatları paylanılacaq.

## İdmançımızdan daha bir uğur



*Cəlilabad Olimpiya İdman Kompleksində 10 kilometr məsafəyə kross qaçışı üzrə Azərbaycan çempionatı keçirilib.*

Çempionatda Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının idmançısı Əmrah Nağıyev də iştirak edib. İdmançımız bu məsafədə finiş xəttini ikinci yerdə başa vurub və gümüş medal qazanıb.

Sonda qalib idmançımız təşkilatçılar tərəfindən mükafatlandırılıb.

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi

### *payız-qış mövsümü üçün müxtəlif növ əşya əmlaklarının satın alınması üçün açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi, bina 41 ünvanında yerləşən Fövqəladə Hallar Nazirliyinin Maliyyə-təsərrüfat şöbəsindən (əlaqələndirici şəxs: Cabbarov Murad Rasim oğlu, tel: 544-48-34) ala bilərlər. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət*

*2. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır)*

*3. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır)*

*4. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış*

*5. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti*

*6. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı*

*7. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri*

*8. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları*

*9. Digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 25 oktyabr 2019-cu il saat $17^{00}$-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 26 oktyabr 2019-cu il saat $17^{00}$-a qədər Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi, bina 41-də yerləşən Fövqəladə Hallar Nazirliyinin Maliyyə-təsərrüfat şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 28 oktyabr 2019-cu il tarixdə saat $11^{00}$-da açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender komissiyası**

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir
və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 701